## "Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

"Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiq edilməsini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılsın ki, iki ay müddətində:

1.1.qüvvədə olan qanunvericilik aktlarının "Ovçuluq haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2.Nazirlər Kabinetinin və müvafiq mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını təmin etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3."Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun 4.4-cü maddəsində nəzərdə tutulmuş vəhşi heyvanların təsərrüfat subyektləri tərəfindən yetişdirilib ov yerlərinə buraxılması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4.həmin Qanunun 9.1-ci maddəsində nəzərdə tutulmuş ovçular cəmiyyətlərinin ovçuluğun və ovçuluq təsərrüfatlarının təşkili və idarə edilməsində iştirak etməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.5.həmin Qanunun 10.4-cü maddəsində nəzərdə tutulmuş dövlət ovçuluq kadastrının və ov obyektlərinin monitorinqinin aparılması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.6.həmin Qanunun 11.3-cü maddəsində nəzərdə tutulmuş ayrı-ayrı yırtıcı heyvan növlərinin vurulması qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.7.həmin Qanunun 13.2-ci maddəsində nəzərdə tutulmuş ovçuluq biletinin forması, qeydiyyatı və ovçuluq fəaliyyəti ilə məşğul olmaq istəyən şəxslərə verilməsi qaydalarını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.8.həmin Qanunun 14.2-ci maddəsinin üçüncü cümləsində nəzərdə tutulmuş ov etmək üçün icazənin verilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.9.həmin Qanunun 14.6-cı maddəsində nəzərdə tutulmuş əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə Azərbaycan Respublikasının ərazisində ov etmək üçün icazənin verilməsi qaydasını müəyyən etsin və bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.10. öz səlahiyyətləri daxilində "Ovçuluq haqqında" Azərbaycan Respublikasının

Qanunundan irəli gələn digər məsələləri həll etsin.

2. Müəyyən edilsin ki:

2.1."Ovçuluq haqqında" Azərbaycan Respublikası Qanununun 4.4-cü maddəsində, 9.1-ci maddəsində, 10.4-cü maddəsində, 11.3-cü maddəsində (ayrı-ayrı yırtıcı heyvan növlərinin vurulması qaydasının müəyyən edilməsinə dair), 13.2-ci maddəsində, 14.2-ci maddəsinin üçüncü cümləsində, 14.6-cı maddəsində, 15.1-ci maddəsində, 21.4-cü maddəsində, 21.5-ci maddəsində və 22.4-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Nazirlər Kabineti həyata keçirir;

2.2.həmin Qanunun 4.2~ci maddəsində, 4.3-cü maddəsində, 7.2-ci maddəsində, 7.3-cü maddəsində, 8,2-ci maddəsində, 9.3.3-cü maddəsində, 11.1-ci maddəsində, 11.2-ci maddəsində, 11.3-cü maddəsində (ayrı-ayrı yırtıcı heyvan növlərinin vurulması limitlərinin müəyyən edilməsinə dair), 12.1-ci maddəsində, 13.5-ci maddəsində, 14.2-ci maddəsinin birinci cümləsində, 14.5-ci maddəsində, 16.1-ci maddəsində, 16.2-ci maddəsində, 20.1.1-ci maddəsində, 20.2-ci maddəsində, 21.6-cı maddəsində, 21.7-ci maddəsində, 22.5-ci maddəsində, 23.0.11-ci maddəsində və 24.2-ci maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir;

2.2-1. həmin Qanunun 13.1-ci maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidmətinin tabeliyində olan “Hərbi Ovçuluq İttifaqı” Məhdud Məsuliyyətli Cəmiyyətinin üzvlərinə münasibətdə Azərbaycan Respublikası Xüsusi Dövlət Mühafizə Xidməti həyata keçirir;

2.3.həmin Qanunun 15.3-cü maddəsində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanı“nın səlahiyyətlərini Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi həyata keçirin

2.4.həmin Qanunun 18.2.8-ci və 23.0.6-cı maddələrində nəzərdə tutulmuş "müvafiq icra hakimiyyəti orqanlan"nın səlahiyyətlərini Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

**Bakı şəhəri, 26 may 2004-cü il**
**№ 69**